**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№372/1** **29 dekabr 2024-cü il**

**Azərbaycan Respublikası Auditorlar Palatasının**
**2025-ci il üzrə iş planı barədə**

"Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanununa, "Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında" Əsasnaməyə, "Azərbaycan Respublikasında auditor fəaliyyətinin inkişaf konsepsiyasına (2021-2030-cu illər)" və Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 11.15-ci "2025-ci il üçün Auditorlar Palatasının iş planının hazırlanması" bəndinə uyğun olaraq hazırlanmış Auditorlar Palatasının və Palata Şurasının 2025-ci il üzrə iş planlarının layihələrini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikası Auditorlar Palatasının və Palata Şurasının 2025-ci il üzrə iş planları təsdiq edilsin (əlavə olunur).

2. Məsul icraçılara (S.Gülməmmədov, Q.Bayramov, F.Qarayev, N.Talıbov, Ş.Əsgərova, E.İbrahimov, B.Orucov, V.Cavadov, E.Behbudova, R.Cəfərli, E.Qəmbərov, Z.Almazov, B.Qasımova, H.Məmmədova, N.İsmayılova, M.Hüseynova) tapşırılsın ki, təsdiq edilmiş iş planında nəzərdə tutulmuş işlərin vaxtında və keyfiyyətlə icra olunmasını təmin etsinlər.

3. Auditorlar Palatasının üzvlərinə tövsiyə edilsin ki, Palatanın dəstəyi ilə auditin aktual problemlərinə dair kitab, broşür, metodik təlimat və göstərişlər hazırlayıb nəşr etdirmək, həmçinin belə materialları təşviq etmək istədikləri təqdirdə iki ay müddətində öz müraciətlərini Auditorlar Palatasına ünvanlasınlar.

4. Auditorlar Palatasının Aparatının rəhbəri Q.Bayramova və Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova tapşırılsın ki, bu qərarın 3-cü bəndində qeyd olunan məsələlərin icrası ilə əlaqədar:

4.1. iki həftə müddətində Palatanın redaksiya heyətinin yaradılması barədə təkliflərini təqdim etsinlər;

4.2. Auditorlar Palatasının üzvləri ilə işin aparılmasını təmin etsinlər.

5. Auditorlar Palatasının icraçı direktoru S.Gülməmmədova, sədrin müşaviri F.Qarayevə və Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinin müdiri Z.Almazova tapşırılsın ki, bir ay müddətində 2024-cü il 16 sentyabr tarixində "Yaşıl iqtisadiyyat zəminində hesabatlılıq və şəffaflıq" mövzusunda keçirilmiş beynəlxalq elmi-praktik konfransın materiallarının elektron qaydada nəşr olunması, Palatanın internet səhifəsində yerləşdirilməsi və konfrans iştirakçılarına göndərilməsi təmin edilsin.

6. Palata sədrinin müşaviri F.Qarayevə tapşırılsın ki, iki ay müddətində bu qərarın və Azərbaycan Respublikası Auditorlar Palatasının 2025-ci il üzrə iş planının mətnlərinin ingilis dilinə tərcümə olunması və Auditorlar Palatasının həqiqi üzvü olduğu Beynəlxalq Mühasiblər Federasiyasına (IFAC) və Avropa Mühasiblər və Auditorlar Federasiyasına (EFAA) göndərilməsi təmin edilsin.

7. Bu qərarın və Azərbaycan Respublikası Auditorlar Palatasının və Palata Şurasının 2025-ci il üzrə iş planlarının mətnləri Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**